# VİRTUAL SAVAŞDAN REAL MÜHARİBƏYƏ

*Ziya Əzimzadə işğaldan qurtulmuş ərazilərdə kompüter mühəndisi kimi də lazımlı mütəxəssisdir*

44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbənin ən əsas təminatçısı dövlət-xalq birliyi, Azərbaycan insanının Ali Baş Komandanın çoxdan gözlənilən "irəli" əmrinə elmi-psixoloji və fiziki cəhətdən hazır olması idi. Belə ki, Vətən övladlarının Qarabağı azad görmək təşnəli arzuları ata-anaların "cənnətməkan yurd yerlərimizin yağı pəncəsindən xilasında Allaha əmanət ol" duaları ilə bütövləşərək əcdadlarımızın müqəddəs ruhu qarşısında möhtəşəm Zəfər hesabatına döndü...



Həmin şücaətli gənclərimizdən biri də Ziya Vüqar oğlu Əzimzadədir. Ziya 1992-ci il, sentyabrın 13-də Bakı şəhərində doğulub. 2009-cu ildə Xırdalan 1 saylı orta məktəbi bitirərək Bakı Dövlət Universitetinin tətbiqi-riyaziyyat və kibernetika fakültəsinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra isə həqiqi hərbi xidmətə yollanıb. 2013-2014-cü illərdə Daşkəsəndəki N saylı hərbi hissədə şəhid general, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun komandanlıq etdiyi dağ-atıcı briqadasında hərb elminin sirlərini öyrənib.

Hərbi xidmətdən qayıdıb çox sevdiyi kompüter mühəndisliyi, proqramçı ixtisasları üzrə çalışmağa başlayıb. 2016-cı ildən SİNAM şirkətinin CİS proqramçısıdır.

Ziya dostumuz, qonşumuzdur; maraqlı, həm də təvazökar həmsöhbətdir. Əsasən də ordudakı nikbin ab-havadan, döyüş yoldaşlarının vətənpərvərliyindən, haqq işimizin müsbət nəticələnəcəyinə inamdan danışdı. Elə 28 yaşının tamamından bir neçə gün keçmiş Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon idarəsinə çağırılaraq ənənəvi hərbi təlimin təkmilləşdirilməsi üçün Pirəküşkül qəsəbəsinə göndərilib. Sentyabrın 27-də isə düşmənin növbəti təxribatını önləmək məqsədilə əks-hücum zəminində başlanan İkinci Qarabağ savaşına qoşulub:

"Gecə ikən həyəcan siqnalı ilə bizi ayağa qaldırdılar və Füzulidə dislokasiya olunduq. 44 gün ərzində hərbi birləşməmiz Füzuli rayonunun erməni işğalındakı yaşayış məntəqələri, eləcə də Cəbrayıl, Xocavənd və digər şəhər, kənd və qəsəbələr uğrunda döyüş yolu keçdi."

Bəs, görəsən Ziya qələbə xəbərini harada və hansı şəraitdə eşidib?

- Noyabrın 9-da artıq qoşun hissələri xeyli irəli getmişdilər. Xocavəndin "Qırmızı bazar" adlanan ərazisində idik. Bizə Laçın koridoru tərəfdən erməni hücumunun qarşısını almaq əmri verilmişdi. Döyüşə tam hazır vəziyyətdə gözləyirdik. Bu zaman Ermənistanın kapitulyasiya aktını imzalaması barədə cənab Prezidentin çıxışı yayımlandı və hərbi vəziyyət şəraitinə görə əmrlərdə dəyişiklik edildi. Mən də digər tək övladlar kimi dekabrın 6-da ordudan tərxis olundum. Erməni quldurları Azərbaycan əsgərindən elə zərbə alıb ki, bir də ancaq 30-40 ilə özünə gələr. Amma Vətənimiz, xalqımız, dövlətimiz üçün həmişə hazırıq! Allah şəhidlərimizə rəhmət eləsin.

İndi Ziya Əzimzadəni mülki həyatda da kifayət qədər taleyüklü işlər gözləyir. O, işğaldan qurtulmuş ərazilərdə kompüter mühəndisi kimi də lazımlı mütəxəssisdir. Ən başlıcası isə tezliklə subaylığın daşını atmalı, ailə həyatı qurmalıdır. "Mədəniyyət/Culture" junalının kollektivi adından ona uğurlar və xoşbəxtlik arzulayırıq! ❖



**"Mədəniyyət/Culture"**